Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun İdarə Heyətinin ___________ tarixli ______№-li qərarı ilə təsdiq edilmişdir.

**Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin Analitik Ekspertiza Mərkəzinin (departament səlahiyyətli)**

**Ə S A S N A M Ə S İ**

## 1. Ümumi müddəalar

**1.1.** Bu Əsasnamə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 16 may tarixli 220 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin Nizamnaməsi"nə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin (bundan sonra – İnstitut) Analitik Ekspertiza Mərkəzinin (Departament səlahiyyətli) (bundan sonra – Mərkəz) əsas fəaliyyət istiqamətlərini, vəzifələrini, hüquqlarını, fəaliyyətinin təşkili qaydalarını müəyyən edir;

**1.2.** Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"ni, "Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin Nizamnaməsi"ni, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarını, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) Kollegiyasının qərarlarını, Agentliyin sədrinin əmr və sərəncamlarını, Agentliyin sədr müavinlərinin və Aparat rəhbərinin göstərişlərini, İnstitutun İdarə Heyətinin sədrinin əmrlərini və sərəncamlarını, İdarə Heyətinin qərarlarını, İdarə Heyətinin sədr müavinlərinin göstərişlərini və bu Əsasnaməni rəhbər tutur;

**1.3.** Mərkəz öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən İnstitutun digər struktur bölmələri, mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları, beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Mərkəzin fəaliyyət istiqamətləri

**2.1.** Mərkəz aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

**2.1.1.** Agentliyin və İnstitutun fəaliyyət istiqamətlərinə uyğun olaraq, təhlükəsizlik və keyfiyyət göstəriciləri üzrə laboratoriya analizi, ekspertiza və tədqiqat (ölçmə) xidmətləri göstərir, habelə milli istinad laboratoriyası funksiyalarını həyata keçirir;

**2.1.2.** laboratoriyaların vahid prinsiplər əsasında idarə edilməsini, fəaliyyətinin planlaşdırılmasını və təkmilləşdirilməsini təmin edir;

**2.1.3.** Mərkəzin tabeliyində olan laboratoriyaların fəaliyyətini təşkil edir və laboratoriyalararası koordinasiyanı həyata keçirir;

**2.1.4.** Mərkəzin və laboratoriyaların inkişafını təmin etmək üçün qabaqcıl beynəlxalq təcrübənin mütəmadi olaraq öyrənilməsini təşkil edir;

**2.1.5.** validasiya və verifikasiya tədbirlərinin milli və beynəlxalq tələblərə və təyin edilmiş prosedurlara əsasən aparılmasını, nəticələr və yekunların rəsmi qaydada sənədləşdirilməsini həyata keçirir;

**2.1.6.** aparılan laboratoriya müayinələri üzrə hesabatlılığı təmin edir;

**2.1.7.** ölkədə qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən laboratoriyaların mütəxəssislərinin hazırlanması məqsədi ilə təlim və tədrisləri təşkil edir;

**2.1.8.** ali təhsil müəssisələrinin və elmi tədqiqat institutlarının müraciəti əsasında tələbələrin və elmi işçilərin təcrübə keçmələri üçün şərait yaradır, öz fəaliyyət istiqamətləri üzrə təlimlər və ekskursiyalar təşkil edir;

**2.1.9.** Avropa Birliyinin sınaq laboratoriyaları, həmçinin beynəlxalq təşkilatlarla əməkdaşlıq edir və bu laboratoriyalar tərəfindən təşkil edilən təlim kurslarında, laboratoriyalararası müqayisəli sınaqlarda və birgə elmi layihələrin hazırlanmasında iştirak edir;

**2.1.10.** qida məhsullarına nəzarət sahəsində fəaliyyət göstərən yerli və beynəlxalq laboratoriyalar arasında müştərək tədqiqatların təşkili və ölkəmizdə ehtiyac duyulan yeni müayinə metodlarının işlənib hazırlanması, tətbiqi ilə bağlı digər laboratoriyalarla qarşılıqlı əməkdaşlıq həyata keçirir;

**2.1.11.** qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən digər laboratoriyaları sınaq materialları ilə təmin edir;

**2.1.12.** qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Mərkəzin vəzifələri

**3.1.** Mərkəzin bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri vardır:

**3.1.1.** qida məhsullarının təhlükəsizlik və minimum keyfiyyət göstəriciləri üzrə laboratoriya analizi, ekspertiza və tədqiqat (ölçmə) xidmətlərini həyata keçirmək və qanunvericiliklə müəyyən edilmiş qaydada cavablandırmaq;

**3.1.2.** laboratoriyalarda idxal, ixrac və ölkədə istehsal olunan qida məhsullarının təhlükəsizlik və keyfiyyət göstəriciləri üzrə müayinələrinin aparılmasının təkmilləşdirilməsi təmin etmək, eləcə də baytar sanitar və fitosanitar təhlükəsizliyin təmin edilməsi istiqamətində təkliflər vermək;

**3.1.3.** laboratoriyaların fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyi, ISO/İEC 17025:2017 – "Sınaq və kalibrləmə laboratoriyasının səlahiyyətliliyinə dair ümumi tələblər" və bu sahədə innovativ yanaşmaya əsaslanan digər beynəlxalq standartlar nəzərə alınmaqla həyata keçirmək;

**3.1.4.** laboratoriyalarda Agentliyin və İnstitutun fəaliyyət istiqamətlərinə uyğun olaraq götürülmüş nümunələrin vahid metodika əsasında qiymətləndirilməsini təmin etmək;

**3.1.5.** dəqiq və etibarlı sınaq nəticələrinin əldə edilməsi üçün lazım olan proses və prosedurların istifadəyə yararlı qalmasını və onların mütəmadi olaraq revalidasiyasını (təkrar validasiya) təmin etmək;

**3.1.6.** laboratoriya sınaq və ya kalibrlənmə predmetlərinin əldə olunması üçün daşınması, sınaq və ya kalibrlənmə obyektləri ilə rəftar etmə, sınaq və kalibrlənmə obyektlərinin tamlığının qorunması üçün zəruri olan bütün şərtlərə, laboratoriyanın maraqları da daxil olmaqla sınaq və ya kalilbrlənmə obyektlərinin qorunması, saxlanması, qəbulu, məhv edilməsi və ya qaytarılması üzrə prosedura malik olmaq;

**3.1.7.** sınaq və kallibrlənmə obyektlərinin istifadəsi, daşınması, saxlanması, sınaq və ya kalibrlənməyə hazırlanması zamanı onların xassələrinin dəyişilməsinin və ya itirilməsinin qarşısının alınması məqsədi ilə ehtiyat tədbirləri görmək;

**3.1.8.** Mərkəzin tabeliyində olan laboratoriyaların sınaq nəticələrinin məxfiliyini və qərəzsizliyini təmin etmək;

**3.1.9.** Mərkəzin tabeliyində olan laboratoriyaların cihaz və avadanlıqlarının inventarizasiyasının aparılmasını təmin etmək;

**3.1.10.** Mərkəzin tabeliyində olan laboratoriyaların cihaz və avadanlıqlarının ölçmə xətalarının düzgünlüyünü və etibarlılığını yoxlamaq məqsədilə metroloji baxımdan keçməsini, habelə biotəhlükəsizlik şkaflarının illik dövri baxışdan keçməsini təmin etmək;

**3.1.11.** Mərkəzin tabeliyində olan laboratoriyaların cihaz və avadanlıqlarının texniki baxışdan keçirilməsi, cihaz təmir-tələb formasını və servis aktlarının tərtib edilməsini təmin etmək;

**3.1.12.** Mərkəzin fəaliyyəti ilə bağlı aylıq, rüblük və illik hesabatlar hazırlayaraq rəhbərliyə təqdim etmək;

**3.1.13.** Mərkəzin fəaliyyət istiqamətləri üzrə ölkədə baş verən və ya baş verə biləcək böhran vəziyyətlərin qarşısının alınması məqsədilə monitorinqlərdə iştirak etmək;

**3.1.14.** İnstitutun struktur bölmələrinin və onun tabeliyində olan qurumların fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi ilə əlaqədar aidiyyəti struktur bölmələrlə birlikdə təkliflər hazırlamaq;

**3.1.15.** Dövlət Proqramlarında, Strateji Yol Xəritələrində, Strateji Planlarda və Fəaliyyət Planlarında mərkəzin fəaliyyət istiqamətləri üzrə qeyd olunmuş tədbirlərin həyata keçirilməsində iştirak etmək;

**3.1.16.** Mərkəzin əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

**3.1.17.** Mərkəzə daxil olan ərizə, şikayət və təkliflərə baxmaq və müəyyən edilmiş qaydada tədbirlər görmək;

**3.1.18.** rəhbərlik tərəfindən mərkəzə tapşırılmış vəzifələri yerinə yetirmək;

**3.1.19.** fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Mərkəzin hüquqları

**4.1.** Mərkəz öz vəzifələrini yerinə yetirərkən aşağıdakı hüquqlara malikdir:

**4.1.1.** İnstitutun digər struktur bölmələri ilə əlaqəli şəkildə işləmək, Mərkəzin gələcək fəaliyyətini daha da inkişaf etdirmək üçün yazılı təkliflər vermək;

**4.1.2.** fəaliyyət istiqamətləri üzrə tədqiqat sınaqlarını aparmaq, səmərələşdirici təkliflər vermək;

**4.1.3.** fəaliyyət istiqamətləri üzrə İnstitutun aidiyyəti struktur bölmələri ilə birlikdə prosedur və təlimatlar hazırlamaq;

**4.1.4.** Mərkəzin fəaliyyət istiqamətləri üzrə təhlillər, ümumiləşdirmələr, monitorinqlər və tədqiqatların aparılmasında, analitik materialların hazırlanmasında iştirak etmək;

**4.1.5.** Müstəqil ekspertləri və mütəxəssisləri, elmi təşkilatları rəhbərliklə razılaşdıraraq qanunvericiliklə müəyyənləşdirilmiş qaydada fəaliyyətə cəlb etmək;

**4.1.6.** fəaliyyət istiqamətləri üzrə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması üçün təkliflər hazırlamaq;

**4.1.7.** bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar məlumatlar (sənədlər) barədə aidiyyəti dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə, İnstitutun struktur bölmələrinə və onun tabeliyində olan qurumlara sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri) almaq;

**4.1.8.** İnstitutun struktur bölmələri və onun tabeliyində olan qurumlarda, habelə dövlət qurumlarında yaradılmış komissiyaların və işçi qrupların işində, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif yerli və beynəlxalq tədbirlərdə öz fəaliyyət istiqamətləri və səlahiyyətləri çərçivəsində iştirak etmək;

**4.1.9.** müəyyən edilmiş akkreditasiya sahəsi üzrə və ya fəaliyyət istiqamətlərinə uyğun olaraq xarici dövlətlərin təcrübəsini öyrənmək, qida təhlükəsizliyi üzrə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək və təkliflər hazırlamaq;

**4.1.10.** fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Mərkəzin fəaliyyətinin təşkili

**5.1.** Mərkəz Laboratoriyalarla işin təşkili sektorundan, Texniki xidmət sektorundan və sınaq laboratoriyalarından təşkil olunmuşdur;

**5.2.** Mərkəzin fəaliyyətinə İdarə Heyətinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (bundan sonra ismin müvafiq hallarında – Mərkəz müdiri) rəhbərlik edir. Mərkəz müdiri mərkəzə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır;

**5.3.** Mərkəz müdirinin İdarə Heyətinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən 2 (iki) müavini vardır. Mərkəz müdirinin müavini Mərkəz müdiri tərəfindən ona həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır. Mərkəz müdiri olmadıqda onun səlahiyyətlərini müəyyən edilmiş qaydada Mərkəz müdirinin müavinlərindən biri və ya İdarə Heyətinin sədri tərəfindən təyin olunmuş digər şəxs həyata keçirir;

**5.4.** Mərkəzin digər əməkdaşları İdarə Heyətinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir;

**5.5.** Mərkəz müdiri:

**5.5.1.** Mərkəzin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

**5.5.2.** tabeliyində olan sektorlar və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək və icra intizamına riayət etmələrinə nəzarət edir;

**5.5.3.** Mərkəzə həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər müvafiq sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

**5.5.4.** Mərkəzin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün İnstitutun rəhbərliyinə təqdimatlar verir;

**5.5.5.** Mərkəzin vəzifələrini yerinə yetirmək üçün İnstitutun digər struktur bölmələrindən məlumat və sənədləri alır;

**5.5.6.** İnstitutun nəzdində fəaliyyət göstərən laboratoriyalarının fəaliyyətinə rəhbərliyin, işin mütərəqqi formalarının, tədqiqatların yüksək analitik dəqiqlik və diaqnostik etibarlılığa malik yeni metodlarının tətbiqini həyata keçirir;

**5.5.7.** İnstitutun digər struktur bölmələri ilə sınaq laboratoriyalarının fəaliyyətini koordinasiya edir, onların işdə qarşılıqlı əlaqəsini təmin edir.

**5.6.** Mərkəzin əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən məsuliyyət daşıyırlar;

**5.7.** Mərkəz "Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxs Analitik Ekspertiza Mərkəzi" sözləri yazılmış möhürə malikdir.